# Baş prokuror Kamran Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi Əsəd Məcid Xan ilə görüşüb



"BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak etmək məqsədilə ölkəmizə səfərə gələn beynəlxalq təşkilat və xarici dövlətlərin nümayəndə heyətləri ilə silsilə görüşlər keçirilir.

Baş Prokurorluqdan verilən xəbərə görə, noyabrın 14-də baş prokuror Kamran Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi - Əsəd Məcid Xanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bilavasitə rəhbərliyi altında COP29-un ən yüksək səviyyədə təşkil olunduğunu bildirib.

COP29 çərçivəsində Azərbaycanın Baş Prokurorluğu, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə idarəsi (BMTNCİ) tərəfindən təşkil olunan, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi tərəfindən həmsədrlik edilən noyabrın 15-də keçiriləcək "İqlim dəyişikliyi ilə mübarizədə hüquq-mühafizə orqanlarının səfərbər olunması" adlı yüksəksəviyyəli sessiyası barədə danışan tərəflər mütəşəkkil cinayətkarlığın, o cümlədən qanunsuz fəaliyyətlərin iqlim dəyişikliyinə səbəb olması və ətraf mühitə dağıdıcı təsirləri barədə danışıb.

İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi səmimi qəbula və qonaqpərvərliyə görə təşəkkürünü bildirib, ölkəmizdə keçirilən ən böyük iqlim konfransı COP29-un Azərbaycanın sədrliyi ilə uğurla davam etdiyini vurğulayıb.

İqtisadi Əməkdaşlıq Təşkilatının iqlim fəaliyyəti və davamlı inkişafa böyük önəm verdiyini qeyd edən Əsəd Məcid Xan Azərbaycanın regional və qlobal miqyasda iqlim problemlərinin həllində mühüm rola malik olduğunu bildirərək birgə əməkdaşlığın əhəmiyyətindən bəhs edib.

Nümayəndə heyətinin ölkəmizə işgüzar səfəri davam edir.

Azərbaycan.- 2024.- 15 noyabr (№ 251).- S.4.